# Təntənəli bayram tədbiri

Bu günlərdə şəhər 4 nömrəli tam orta məktəbində "Milli Dirçəliş Günü"nə həsr olunmuş tədbir keçirilib. Təntənəli bayram tədbirində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra uşaqlara bu əlamətdar gün haqqında məlumat verilib. Qeyd olunub ki, 17 noyabr xalqın milli azadlıq hərəkatının başlanğıc günü kimi tariximizdə yeni bir səhifə açmışdır. Ölkəmizdə hər il bu tarix Milli Dirçəliş Günü kimi qeyd edilir.



Tədbir şagirdlərin hazırladığı bədii proqramla davam etdirilib.

**Günel Qazıyeva**
**"Qəbələ"**

# ASAN könüllülərinin III spartakiadası

Azərbaycan Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı ilə Qəbələdə "Sağlamlıq Günü, ASAN Könüllülərinin III Spartakiadası" layihəsi həyata keçirilmişdir.



Spartakiadanın əsas məqsədi ölkənin milli idman strategiyasının dəstəklənməsi, gənclər arasında idmanın təbliği ilə sağlam nəslin formalaşdırılmasına töhfə verməkdir. Layihədə 7 fərqli bölgədən olan gənc iştirakçılar voleybol, tennis, kəndirdartma, qaçış və digər idman növləri üzrə öz güclərini sınamışlar.

Tədbirin sonunda spartakiadanın kuboku I yeri tutmuş komandaya təhvil verilmiş, ümumi idman növləri üzrə I, II, III yerlərə layiq görülən komanda üzvləri medallarla təltif olunmuşdur.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Öz işində peşəkar ol

"Göyçay İnkişaf Mərkəzi" Gənclər İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə həyata keçirdiyi "Öz peşəndə peşəkar ol!" adlı layihəsinin icrasını davam etdirir.

Layihə çərçivəsində gənclər üçün növbəti təlim Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində təşkil edilib. Mərkəzdə təhsil alan şagirdlər arasından seçilmiş 20 nəfər gənc üçün peşə bacarıqları, peşə növləri, peşə yönümü, peşə yönümünün məqsədləri, peşə seçiminin strategiyası, karyera planlaşdırılması, karyera bələdçiliyi, şəxsi səriştələrin artırılması və sahibkarlıq düşüncə tərzinin gənclər arasında təbliği mövzularında təlimlər keçirilib.

Layihənin həyata keçirilməsində məqsəd Göyçay, Qəbələ, İsmayıllı rayonlarından seçilən 60 nəfər gəncin peşə təhsilinə yiyələnməsinə, peşə ixtisası əldə etməsinə maraqlarını artırmaq, onların şəxsi, sosial səriştələrini və peşə bacarıqlarını inkişaf etdirmək, əmək bazarına çıxış imkanlarını dəstəkləmək, həmçinin məşğulluq probleminin həll olunmasına yardım göstərməkdir.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# Tədbiri balaca aparıcılar idarə edirdi

***1954-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 20 noyabr tarixinin Ümumdünya Uşaqlap Günü kimi qeyd olunması qərarını qəbul etmişdir. 1989-cu ilin 20 noyabrında isə BMT Baş Assambleyası «Uşaq Hüquqları Konvensiyası»nı təsdiqləmişdir.***

***Uşaq hüquqlarına aid qəbul olunmuş bu mühüm sənədlərin ildönümü münasibətilə ölkəmizdə uşaq hüquqları aylığı keçirilir.***

Uşaq huquqları aylığı çərçivəsində eyni zamanda 20 noyabr Ümumdünya



Uşaqlar Günü və «Uşaq Hüquqları Konvensiyası»nın qəbul olunduğu gün münasibətilə şəhər 3 nömrəli körpələr evi-uşaq bağçasında Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi ilə birlikdə tədbir keçirilmişdir.

Tədbirə uşaq bağçasında təlim-tərbiyə alan körpələr Ülkər və Nihad aparıcılıq etmişlər. Körpələrin ifasında şeirlər, mahnılar səslənmiş, səhnəciklər göstərilmiş, rəqslər ifa olunmuşdur.

Tədbirin fərqliliyi ondan ibarət idi ki, aparıcılıqla bərabər qonaqların qarşılanması, ümumiyyətlə mərasimin bütün detalları balacalara həvalə olunmuşdu və onlar bu vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Tədbirin ən maraqlı anı ondan ibarət idi ki, uşaqlar öz hüquqlarını ardıcıllıqla saya bilir, böyüklərdən özlərinə diqqət tələb edirdilər.

Sonda uşaqlar bağça ilə əməkdaşlıq etdiklərinə görə uşaq və ailələrə dəstək mərkəzinin işçilərinə təşəkkürlərini bildirdilər. Körpələr bağçanın işçiləri ni əmin etdilər ki, onlara göstərilən qayğıya və zəhmətə layiq olacaqlar.

Bununla da 3 nömrəli körpələr evi-uşaq bağçasında növbəti maraqlı bir tədbir başa çatdı.

**Lalə KƏRİMOVA,**
**3 saylı körpələr evi-uşaq bağçasının musiqi rəhbəri.**

# Qəhrəman şəhidə həsr olunmuş yazı müsabiqəsi

***«Media və Təhsil İnnovasiyaları Mərkəzi» İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə Azərbaycanın 4 rayonunda, o cümlədən Qəbələ rayonunun təhsil müəssisələrinin şagirdləri arasında «Bizim qəhrəman şəhid» adlı yazı müsabiqəsi keçirilib.***

Müsabiqə çərçivəsində 2016-cı ilin aprel döyüşlərindlə qəhrəmancasına şəhid olmuş həmyerlimiz, leytenant Sahil Şirinovun təhsil aldığı məktəbdə anım mərasimi keçirilib.

Noyabrın 10-da yekun vurulan müsabiqənin nəticələrinə əsasən Bum qəsəbə tam orta məktəbinin X sinif şagirdi Nərmin Məmmədova birinci, rayonun digər məktəblərindən 2 nəfər şagird ikinci, 3



nəfər şagird üçüncü yeri tutmuşlar.

Noyabrın 27-də Heydər Əliyev Mərkəzində müsabiqənin mükafatlandırma mərasimi olub.

Mərasimdə rayon təhsil şöbəsinin nümayəndələri Arifə Bayramova, Aslan Şirazov, «Media və Təhsil İnnovasiyaları Mərkəzi» jurnalının redaktoru Səidə Bahadurqızı və leytenant Sahil Şirinova dərs deyən müəllimlər çıxış etmişlər.

Yekunda şəhidin ailə üzvləri tədbirin təşkilatçılarına öz minnətdarlıqlarını ifadə etmişlər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Yeni layihənin icrasına başlanılıb

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "Karyera üçün təhsil" layihəsinin icrasına başlanılıb.

"Junior Achievement Azərbaycan" İctimai Birliyinin dəstəyi ilə həyata keçirilən layihənin məqsədi gənclərin məşğulluq imkanlarının artırılması, bacarıq və şəriştələrinin, həmçinin maliyyə savadlılığı və sahibkarlıq biliklərinin təkmilləşdirilməsidir.



Layihə çərçivəsində gənclərin gələcək karyeralarında uğur qazanmaları üçün peşəkar inkişaf təlimləri ilə yanaşı, karyera planlaşdırılması, marketinq, satış və digər sahələr üzrə peşəyönümlü təlimlər təşkil olunacaq.

Təlimlər "Müvəffəqiyyət bacarıqları", "Maliyyə savadlılığı", "Sahibkar ol" modulları əsasında aparılır.

Layihənin sonunda keçiriləcək "Biznes günü"ndə iştirakçı gənclər sahibkarlıq bacarıqlarının nəticəsi olaraq öz biznes planlarını hazırlayıb təqdim edəcəklər.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# 2017-ci ilin doqquz ayında Qəbələ rayonunun sosial-iqtisadi göstəriciləri

**(Əvvəli qəzetimizin ötən nömrəsində).**

Həmin dövr ərzində Qəbələ rayonunda 11593 min manatlıq qida, 17310 min manatlıq digər məhsullar istehsal edilmiş və 5115 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

**Tikinti**

İlin əvvəlindən oktyabr ayın 1-nədək rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 21491 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 20991 min manat təşkil etmişdir.

Bu dövrdə ümumi sahəsi 16688 kv metr olan 201 fərdi ev tikilmiş, 13576 min manatlıq əsas fondlar istifadəyə verilmişdir ki, bunun da 5741 min manatını dövlət, 7835 min manatını isə qeyri dövlət mülkiyyəti təşkil etmişdir.

**Turizm**

Qəbələ rayonunda turizim infrastrukturu dünya standartlarına uyğun yaradılmışdır. Buradakı təbiət mənzərələri, tarixi abidələr, mədəniyyət ocaqları müasir turizim işinin təşkili baxımından çox cazibədardır.

**Təhsil**

Rayonda 4 ibtidai, 11-əsas və 53 orta məktəb fəaliyyət göstərir.

Mövcud 68 ümumtəhsil məktəbində 16998 nəfər şagird təhsil alır. 2620 müəllim şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olur. Məktəblərdə şagirdlər 485 kompüterdən istifadə edir.

Eləcə də 22 məktəbəqədər uşaq tərbiyə müəssisəsində 780 nəfər uşaq vardır.

Qəbələ peşə məktəbində 408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır

**Səhiyyə**

Rayonda 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator müəssisə, cəmi 51 tibb ocağı və müasir standartlara cavab verən regional müalicə diaqnostika mərkəzi fəaliyyət göstərir.

Əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər orta ixtisas təhsilli tibb işçisi düşür.

**İstehlak bazarı**

2017-ci ilin doqquz ayı ərzində rayonun istehlak bazarında əhaliyə 28020 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 127355 min manat olmuş bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 15.3 faiz və ya 16953 min manat çoxdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi 5.9 faiz və ya 7509 min manat təşkil etmişdir.

**Əmək haqqı və məşğulluq**

Muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 283 manat olmuşdur ki, bu da 2016-ci ilin həmin dövrünə nisbətən 1,2 faiz çoxdur.

Doqquz ayda müəsissə və təşkilatlarda işçilərə 12056 manatlıq sosial xarakterli ödəmələr verilmişdir.

Rayon əmək və məşğulluq mərkəzində 1 oktyabr tarixədək 1100 nəfər işsiz vətandaş qeydiyyata alınmış, onların 411 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir.

Rayonda məşğul əhalinin sayı 50013 nəfərdir. Onların 10887 nəfəri muzdla işləyənlərdir. Muzdla işləyənlərin 7003 nəfəri, yaxud 64.3 faizi büdcə təşkilatlarında çalışır.

Məşğul əhalinin 81 faizi və ya 40511 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 29541 nəfəri və yaxud 72.9 faizi şəxsi təsərrüfatlarında, 22.8 faizi yaxud 9249 nəfəri fiziki şəxs qismində, yerdə qalan 1721 nəfəri və ya 4.3 faizi isə digər sahələrdə çalışanlardır.

**Yeni açılmış iş yerlərinin sayı**

2003-cü ilin oktyabr ayının 1-dən 2017-ci il oktyabr ayının 1-nə dək rayonda 16437 yeni iş yeri açılmışdır ki, onun da 14638-i daimi iş yerləridir.

**Əhalinin sosial müdafiəsi**

İlin doqquz ayı ərzində dövlət sosial müdafiə fondunun rayon şöbəsində 11629 pensiyaya işi üzrə 11906 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur ki, onların 7833 nəfərinə yaşa görə, 2993 nəfərinə əlilliyə görə, 803 ailənin 1080 nəfərinə isə ailə başçısını itirilməsinə görə pensiya təyinatı aparılmışdır. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiya məbləği 2008.4 min manat, 1 pensiya işi üzrə orta aylıq pensiya məbləği 172.71 manat təşkil etmişdir.

Əhalinin sosial müdafiə mərkəzi tərəfindən 4653 ailənin 5018 üzvünə 3165.0 min manat sosial müavinət, 356 ailənın 1637 üzvünə 953.2 min manat ünvanlı sosial yardım ödənilmişdir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**